# Baramaçılıq inkişaf etdirilir



Bu ilki mövsümdə Qəbələ rayonunda yaş barama istehsalının 12 tona çatdırılması nəzərdə tutulur. Barama yetişdirilməsi ilə əlaqədar 75 kümçü ailəsi ilə müqavilə bağlanılıb, onlara 300 qutu, yəni 5,7 kiloqram ipəkqurdu paylanılıb. Ümumiyyətlə, cari mövsümdə Qəbələdə baramaçılıq sahəsində 150-dən çox kənd sakininin məşğulluğu təmin olunub. Halhazırda rayonda ipəkqurdunun yemləndirilməsi təlimata uyğun aparılır.

# Dəyirmi masa

Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Heydər Əliyev Mərkəzində "Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən ekspozisiya zalına baxış keçirmişlər. Konfrans zalında davam edən tədbiri giriş sözü ilə açan Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanı parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etməklə xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqil bir dövlət bəxş etdiyindən danışmışdır. Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən film nümayiş olunmuşdur.

# Albaniyada bağçılıq mədəniyyəti

Albaniyada bağçılığa dair qaynaqlar nisbətən məhduddur. Strabon məlumat verir ki, Albaniya torpağında ağaclar becərilir, həmişəyaşıl bitkilər haqqında da məlumat verilir. Məsələn, Araz vadisindən habelə Sakasena və Qoqarenadan danışanda göstərir ki, bütün bu ölkə cır meyvələrlə və insan tərəfindən yetişdirilən ağacların (meyvələri) və həmişəyaşıl (bitkilər) ilə doludur. Burada hətta zeytun bitir. Bu məlumata əsasən güman etmək olar ki, həm Araz vadisində və Qoqarenada, həm də Sakasenada iki növ ağac vardır. Birinci növ ağaclar bu meyvə ağacları, ikinci növ ağaclar isə yerli əhali tərəfindən becərilən meyvə ağaclardır.Bu ərazidə sonralar məlum olmuş zeytun ağacları diqqəti cəlb edir. Kursi Ruf (1əsr) çox ehtimal ki, cənubi bəlkə də cənubi-şərqi Qafqazı nəzərdə tutaraq göstərirdi ki, başqa ehtiyyatları bol olan bu ölkədə həm də çoxlu alma yetişdirirlər və onun torpağı üzüm hasilə gətirmək üçün olduqca əlverişlidir.

Qəbristanlıqda aparılan qazıntı işləri antik Albaniyada bağçılıq haqqında müəyyən material verir. Küp qəbirlərindəki qabların birindən qoz və nar qabıqları, başqa birindən şaftalı çərdəkləri tapılmışdır. Çiy kərpic qəbrində gilas tumları aşkar edilmişdir. Mingəçevirdə aparılan arxeoloji qazıntılar zamanı tapılan taxta qəbirlərdə meyvə qalıqları vardır. Üzümçülük haqqında məlumat qalmışdır. Qazıntı zamanı aşkara çıxarılmış paleobotanik (material verir) antik müəlliflərin üzümçülük haqqında məlumatını təsdiqləyir. Ağdam yaxınlığındakı üzərliktəpədə eramızdan əvvəl III əsrlərə aid küp qəbirlərin birindən dibindən üzüm tumları olan bir qab tapılmışdır. Qonşu ölkələrdə olduğu kimi Azərbaycanda da lap qədimlərdən üzüm yetişdirilirdi. Başqa bitkiləri yetişdirmək mümkün olmayan torpaqlarda da üzüm çox gözəl yetişir. Strabon Albaniya üzümçülüyündən danışarkən göstərir ki, tənəklər (hətta qulluq edilməyəndə də) uzun ömür sürür. Hər 5 ildən bir tənəyin dibi bellənəndə (artıq zoğlar)kəsilir, cavan tənəg (2 yaşında) bar verir. Yetişmiş tənəg isə o qədər üzüm verir ki, salxımlar dərilməmiş qırılır. "Dronisi Periektrin coğrafiyasına dair şərhlər"də Evestafi isə kaspilərin torpağında üzümün bərəkətli olduğunu qeyd edir. Üzümçülüklə əlaqədar olaraq qazıntı zamanı tapılmış bəzi əşyaların da adını çəkmək lazımdır, həmin əşyalar hər şeydən əvvəl tənəgləri budamaq üçün işlədən bıçaqlar və qayçılardır. Dediklərimiz göstərir ki, qədim Qafqaz Albaniyasının ərazisində üzüm bol yetişdirilirdi. Mingəçevirdə küp qəbirlərinin birindən üzüm tumları tapılmışdır.

Məlum olduğu kimi, üzümdən müxtəlif məhsullar hazırlanması təsərrüfat həyatında böyük əhəmiyyətə malikdir. Qədim Albaniyada üzüm şirəsini çıxarmaq üçün bilavasitə istifadə olunmuş əşyalar böyük maraq doğurur. Belə əşyalardan biri də şirə almaq üçün düzəldilmiş daş vannadır. Bu cür üzümsıxma vannalarından biri Xınıslıda aşkar edilmişdir. Vannanın dibi girintili-çıxıntılıdır və orada hazır üzüm şirəsinin axması üçün nov vardır. Hazır üzüm şirəsini qıcqırmağa qoyurdular. Arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış materialın araşdırması göstərir ki, öyrənilən dövrdə üzümçülüklə yanaşı şərabçılıq da olmuşdur. İri küplər həm üzüm emal etmək, həm də şərab saxlamaq üçün idi. Gildən düzəlmiş başqa əşyalar da şərabçılıqdan xəbər verir. Məsələn küp və torpaq qəbirlərdə aşkar edilən tor arakəsməli qabları göstərmək olar.

İstifadə olunmuş ədəbiyyat: Akademik İqrar Əliyev "Qafqaz Albaniyasında təsərrüfat həyatı".

**Zahir KƏRİMOV.**
**Qəbələ Dövlət Tarix-Bədii Qoruğun direktoru**

# Rayon Tarix Diyarşünaslıq Muzeyində

Rayon Tarix Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar "Nurlu sima" adlı tədbir keçirilmişdir. Muzeyin direktoru Bəxtiyar Vəliyev tədbiri giriş sözü ilə açaraq ümummilli lider Heydər Əliyevin əvəzedilməz xidmətləri və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli dəyərlərə qayıdış, elmin, təhsilin, mədəniyyətin inkişafı sahəsində böyük əməyini vurğulamışdır. Tədbirdə iştirak edən Qəbələ Uşaq Reabilitasiya Mərkəzinin, Dövlət Rəsm Qalereyasının, rayonun məktəbəqədər təhsil və ümumtəhsil müəssisələrinin nümayəndələrinin əl işləri, rəsm əsərləri nümayiş edilmiş, uşaqların ifasında şeirlər səsləndirilmişdir. Sonda sərgidə xüsusi fəallıq gösdərənlər fəxri fərmanla təltif edilmişlər.




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə
2023-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


# Voleybol üzrə rayon turniri

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş gənclər arasında voleybol üzrə şəhər 5 saylı tam orta məktəbin idman zalında rayon turniri keçirilmişdir. Turnirin yekun nəticəsinə əsasən Qəbələ şəhər 1 saylı tam orta məktəbin komandası I yeri, şəhər 5 saylı tam orta məktəbin komandası II yeri və Zarağan kənd 2 saylı tam orta məktəbin komandası III yeri tutmuşlar. Qaliblərə təşkilat komitəsinin təsis etdiyi kubok və diplomlar təqdim edilmişdir.

## İTMİŞDİR

Gəncə şəhər sakini **Allahmanov Ayxan Vidadi oğluna** məxsus dövlət qeydiyyat nişanı 99 HA 165 olan NİVA markalı maşının **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Mirzəbəyli kənd sakini **İlyasov Cavid Dünyəmin oğluna** məxsus VAZ 011 markalı minik maşınının 36 BE 189 saylı **qeydiyyat nişanı və qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Zarağan kənd sakini **Soltanov Əflatun Əziz oğluna** məxsus ODAZ 9976 markalı Yarımqoşqunun 36 ZA 022 nömrəli **dövlət qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər sakini **Bayramov Sərdar Yaqub oğluna** məxsus, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin hüquqi şəxslərin Dövlət Qeydiyyatı üzrə Göyçay bölgə şöbəsində 18.07.2003-cü il tarixli 0703-Q1 saylı Şəhadətnamə ilə qeydə alınmış "Qəbələ Avtovağzal" Məhdud Məsuliyyətli Cəmiyyətin **möhürü və ştampı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Çuxur Qəbələ kənd sakini **Soltanov Zahid Səfdər oğluna** məxsus HYUNDAI 130 markalı minik maşınının 77 PL 920 saylı **qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1500*